RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 270 (8586) ÇƏRŞƏNBƏ, 23 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanın ərazi bütövlüyünü bərpa edən LİDER

## İlham Əliyev müdrik rəhbər və Müzəffər Ali Baş Komandan kimi Vətən müharibəsinin qəhrəmanıdır

Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi oldu. Bu qalibiyyət Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan, ötən 17 ildə isə Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazıldı.

### Modern silahlara və döyüş imkanlarına malik ordu

Ordu dövlətin təməl prinsiplərindən biri, təhlükəsizliyinin əsas təminatçısıdır. Hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı ordu quruculuğu və bu sahədə perspektiv vəzifələr barədə danışan Prezident İlham Əliyev demişdi: *“Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir”.*

Ötən 17 ildə Azərbaycanın müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin tərkibində olan bütün qoşunlarda həyata keçirilən islahatlar İlham Əliyevin öz vədinə sadiqliyini təsdiq edir. Bu illərdə İlham Əliyevin xüsusi nəzarəti, tapşırıqları, göstərişləri və təşəbbüsləri ilə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlardan ilk növbədə ordunun yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi üçün gərgin, səmərəli və məqsədyönlü iş aparılıb. Çünki Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı bir vaxtda qarşıda dayanan ən əsas vəzifələrdən biri ordunun gücləndirilməsi, döyüş qabiliyyətinin daimi olaraq artırılması, modernləşməsi, ən son hərbi texnologiyalara yiyələnməsi idi. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artması nəticəsində Silahlı Qüvvələrin tərkibindəki bütün qoşunların döyüş imkanlarının artırılması üçün qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq həyata keçirildi. İstər quru qoşunlarının, istər hərbi hava qüvvələrinin, istərsə də hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə olunan inkişafın Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri ordumuzun qüdrətlənməsi, döyüş qabiliyyətinin artırılması idi.

Azərbaycanın Cənubi Qafqazın ən qüdrətli ordusuna malik olduğunu yalnız yerli deyil, xarici mütəxəssislər də təsdiq edirlər. Reytinq agentliklərinin hesabatlarında Azərbaycan güclü orduya malik ölkələr sırasında yer alır. Ölkə vətəndaşları və beynəlxalq ictimaiyyət ordumuzda baş verən keyfiyyət dəyişikliklərini hərbi paradlarda da görmüşdülər. Təsdiq olunmuşdu ki, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Ordusu arsenalını modern silah və hərbi texnika ilə zənginləşdirir, müasir döyüş imkanlarını uğurla mənimsəyir.

### Düşmənin belini qıran, başını əzən dəmir yumruq

44 günlük Vətən müharibəsi isə ordumuzun qüdrəti barədə söylənənlərin praktik təsdiqi oldu. Düzdür, 2016-cı ilin aprelində və bu ilin iyulunda qısamüddətli döyüşlər baş vermişdi. Həmin vaxtlarda ordumuz işğalçıya sarsıdıcı zərbələr endirərək, onu geri çəkilməyə məcbur etmişdi. Vətən müharibəsi isə Ermənistanın Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması və işğal altında qalan ərazilərimizin azad edilməsi ilə nəticələndi.

Ardı 5-ci səh.

◆ Prezidentə yazırlar

# «44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu bir daha göstərdi»

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyə vətəndaşları rəşadətli Ordumuzun Vətən müharibəsində qazandığı tarixi Zəfər münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlıq məktubları ünvanlamaqda davam edirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

### “Siz ata-baba torpaqlarınızda qəhrəmanlıq dastanı yazırsınız”

Türkiyənin Karaman şəhərindən **Raşit İşcan** yazır: “Hörmətli cənab Prezidentimiz İlham Əliyev. Mən Türkiyənin Karaman şəhərindəki Mərkəzi İmam Hatip Liseyinin şagirdiyəm. Azərbaycanı çox sevirəm. Bu sevgimi bildirmək, Azərbaycan Ordusuna dəstəyimi ifadə etmək üçün gündəlik xərcliyimdən topladığım 1000 türk lirəsini Silahlı Qüvvələr Fonduna göndərmişəm. Sizlər orada Vətən torpağı üçün canlabaşla mübarizə apararkən topladığım pulu xərcləməyi özümə halal bilmərəm və bununla tarixi mübarizənizdə az da olsa payımın olmasını istəyirəm.

Mənim Azərbaycana olan sevgimi, səmimi hisslərimi qəbul edin. Siz ata-baba torpaqlarınızda qəhrəmanlıq dastanı yazırsınız. Rəbbim Sizə və şanlı Ordunuza zəfərlər nəsib etsin. Qəlbim və dualarım daim Sizinlədir. İnşallah, imkan olanda Azərbaycanı ziyarət edəcəyəm, ikinci Vətənimlə bağlı xəyallarımı həyata keçirəcəyəm. Siz də, yəqin ki, gələcəkdə gözəl Türkiyəmizə səfər edəcəksiniz. Fürsət və qismət olarsa, türk və İslam dünyasının iki güclü liderini ziyarət edib əllərinizdən öpmək arzumdur. Sizi və can Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm. Bu haqq savaşınızda Allah yar və yardımçınız olsun. Mən Azərbaycan Ordusuna hər zaman kömək etməyə hazıram”.

Ardı 3-cü səh.

Milli Məclisin iclasında

# Gələn ilin dövlət büdcəsi zərfi parlamentə təqdim olunub

Dekabrın 22-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Parlamentin sədri Sahibə Qafarova iclası açıq elan etdikdən sonra komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Fazil Mustafa, Əziz Ələkbərov, Sahib Alıyev, Əli Məsimli bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər.

Çıxışlarda 44 günlük Vətən müharibəsi günlərində olduğu kimi, bundan sonra da milli birliyin qorunmasının vacibliyi vurğulandı, qələbədən sonra aparılacaq bərpa-quruculuq işlərinə dair təkliflər səsləndirildi. O cümlədən informasiya müharibəsində ölkə KİV-nin fəal iştirakı müsbət qiymətləndirildi, sovet illərində indiki Ermənistan ərazisindəki dədə-baba yurdlarından deportasiya olunan soydaşlarımızın hüquqlarının müdafiəsinin tələb olunmasının vacibliyinə toxunuldu, koronavirusla bağlı dinləmələrin təşkili və digər məsələlərdən söz açıldı.

Sonra gündəlikdəki məsələrin müzakirəsi başladı.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim etdi. Bildirdi ki, qanun layihəsində təklif olunan dəyişiklik kommersiya təşkilatlarında, xüsusilə də kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu aparılmasının təkmilləşdirilməsini nəzərdə tutur. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsini üçüncü oxunuşda təsdiqlədilər.

Ardı 2-ci səh.

Sosial Tədqiqatlar Mərkəzi

# “Dağlıq Qarabağda erməni əhalisinin sayı: işğala qədər və sonra” adlı hesabat yayıb

Sosial Tədqiqatlar Mərkəzi “Dağlıq Qarabağda erməni əhalisinin sayı: işğala qədər və sonra” adlı hesabat yayıb. AZƏRTAC xəbər verir ki, hesabatı dekabrın 22-də mərkəzin İdarə Heyətinin sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc təqdim edib.

Hesabatda deyilir ki, noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmış birgə Bəyanatın 7-ci maddəsi Dağlıq Qarabağ regionuna məcburi köçkünlərin qayıdışı ilə bağlı məsələləri tənzimləyir. Sənəddə deyilir ki, daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qayıdırlar.

Ötən qısa müddət ərzində razılaşmanın sözügedən müddəasının həyata keçirilməsi məqsədilə beynəlxalq humanitar missiyanın təşkil olunması haqqında məlumatın olmamasına baxmayaraq, 44 gün davam edən müharibə zamanı münaqişə zonasını tərk etmiş ermənilərin geri qayıtmasına dair müxtəlif mənbələr tərəfindən fərqli rəqəmlər səsləndirilir. İlk növbədə, tərəflərin razılığı ilə regionda yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti ilə bağlı yaradılmış informasiya resursunda gündəlik icmallar bölməsində 18 dekabr tarixinə olan məlumata görə, 41275-dək şəxsin Xankəndi və ətraf ərazilərə qaytarıldığından bəhs edilir. Lakin haqlı olaraq sual meydana çıxır: Dağlıq Qarabağda işğala qədər və sonra yaşayan əhalinin demoqrafik, sosial və etnik-milli tərkibinin dinamikası necə dəyişib?

Ardı 5-ci səh.



# Dünyanın gözlədiyi peyvənd

Artıq bir ildir ki, yeni növ koronavirus Yer üzündəki bütün xəstəlikləri arxa plana keçirərək bəşəriyyətin birnömrəli probleminə çevrilib. COVID-19 Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunandan bəri bütün ölkələr bu virusla mübarizəyə qalxıb və savaş aparır. Dünya tibbi, müxtəlif ölkələrin elm adamları insanlıq üçün yeni olan bu bəlanı “susdurmaq” naminə səfərbər olub.

Çin alimləri COVID-19-un genomunu açıqladıqdan sonra isə əczaçılıq şirkətləri, laboratoriyalar, ayrı-ayrı alimlər və həkimlər koronavirusa qarşı peyvənd axtarışına başladılar. Müxtəlif qorunma və qabaqlayıcı tədbirlərə, məhdudiyyətlərə baxmayaraq, infeksiyanın sürətlə bütün planetə yayılması hər kəsin diqqətini və ümidini daha çox istehsal olunacaq peyvəndə dikdi. Bütün ilboyu hamını bu sual daha çox maraqlandırdı: peyvənd nə vaxt hazır olacaq?

### Peyvəndlər bütün koronavirus mutasiyalarına qarşı təsirli olacaq

Artıq xeyli vaxtdır ki, bəzi ölkə və şirkətlərin istehsal etdiyi peyvəndlər barədə müsbət fikirlər səslənməkdədir. Hətta bir neçə ölkədə əhalinin peyvəndlənməsinə başlanıldığı da bildirilir.

Bu günlərdə ABŞ-ın yeni seçilən Prezidenti Co Bayden COVID-19 əleyhinə “Pfizer/BioNTech” vaksininin ilk dozası ilə peyvənd edilib. Onun həyat yoldaşı - ölkənin gələcək birinci xanımı Cill Bayden də həmin gün peyvənd olunub.

Ardı 5-ci səh.

# Ermənistan sonu görünməyən siyasi uçuruma yuvarlanıb

Azərbaycanın hərbi məğlubiyyətə uğratdığı Ermənistan və onun xalqı işğal siyasətinin, uzun illərdir insanların beyninə yeridilmiş yanlış ideologiyanın və təbliğatın acısını yaşayır. Azərbaycanla müharibədəki məğlubiyyət indi bu ölkəni elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər baş nazir Nikol Paşinyanı çətin vəziyyətdə qoyub.

### Ermənilər artıq həqiqəti deyirlər

Ermənistanda bir aydan artıqdır ki, Paşinyana qarşı etirazlar davam edir. Amma bununla belə, ölkədə sağlam təfəkkürlə düşünən insanlar anlayırlar ki, ölkədə vəziyyətin bu həddə çatmasında yalnız baş nazir günahkar deyil və problemlərin kifayət qədər dərin kökləri var. Vəziyyətdən çıxış yolu isə işğal siyasətinə son qoyaraq qonşu dövlətlərlə əməkdaşlığın edilməsindən keçir. Əks təqdirdə ölkənin ciddi problemlər yaşaması qaçılmazdır.

Bununla bağlı Ermənistanda tanınan biznesmen Armen Martirosyanın “Facebook” səhifəsində etdiyi paylaşıma nəzər yetirmək yerinə düşərdi. “Antares” holdinqin sahibi olan Martirosyan həmvətənlərinə xitabən yazıb: “26 il öncə başqasının ölkəsinə girib orada ağalıq edir, evlər tikir və mədən istismar edirdiniz. İndi torpağın sahibi gəlib deyir ki, çıxın, biz isə bunun razılaşmaya daxil olmadığını söyləyirik. Budur sizin səviyyəniz? Öz iş masamı sizin evə qoysam, xoşunuza gələr?”

Paşinyana qarşı çıxan müxalifətçilərin etiraz və hədələrindən sonra biznesmen paylaşımını silib, eyni zamanda profilini bağlamağa məcbur olub.

Proseslər göstərir ki, Sarkisyan-Koçaryan koalisiyası yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır.

Ardı 6-cı səh.

# Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!
Əziz qardaşım.

Vətən müharibəsində şanlı mübarizə nəticəsində Qələbə qazanan qəhrəman Azərbaycan Ordusunu, bütün azərbaycanlı qardaşlarımı və zati-alinizi Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Azərbaycanın 44 gün davam edən Vətən müharibəsini Zəfərlə başa çatdırması və illərdir Ermənistanın işğalı altında olan torpaqlarını azad etməsi çətin keçən 2020-ci ildə bizi ən çox xoşbəxt edən hadisəni - Zəfər Gününü qürurla qeyd etməyimizə səbəb oldu.

Zati-alinizin qətiyyətli liderliyi ilə qazanılan bu Zəfər bütün Türk dünyasına sonsuz sevinc və qürur hissi yaşatdı. Bu Zəfərin əldə olunması üçün canlarını göz qırpmadan fəda edən üç minə yaxın əziz şəhidimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Fürsətdən istifadə edərək zati-aliləri, əziz qardaşım, Sizə və dəyərli ailənizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına rifah və əmin-amanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Abdullah GÜL,***
***Türkiyə Respublikasının 11-ci Prezidenti***

# Nazirlər Kabineti yanında Operativ Qərargah sərtləşdirilmiş xüsusi karantin rejiminin icrasına nəzarətin gücləndirilməsini müzakirə edib

Dekabrın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın videokonfrans formatında iclası keçirilib.





Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir sərtləşdirilmiş xüsusi karantin rejiminin tələblərinə və sanitar epidemioloji normalara qeydşərtsiz olaraq tam əməl edilməsinin vacibliyini bildirib.

Qeyd olunub ki, Prezidentin və Birinci vitse-prezidentin təşəbbüsü ilə Azərbaycan ilk peyvənd əldə edən ölkələrdən biri olacaq.

Səhiyyə müəssisələrində vaksinləmə prosedurlarının müəyyən olunmuş normalara uyğun həyata keçirilməsi və müvafiq protokolların tərtib edilməsi ilə bağlı tapşırıqlar verilib.

İclasda sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar görülən işlər barədə məlumat verilib, müvafiq nəzarət tədbirlərinin gücləndirilməsi ilə bağlı məsələlər geniş müzakirə olunub. Sərtləşdirilmiş karantin rejiminin tələblərinin icrasına nəzarətin gücləndirilməsi ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıq verilib.

# Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hərbi qulluqçularımız üçün dəstək aksiyası davam etdirilir

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu və "Bravo" supermarketlər şəbəkəsi işğaldan azad olunmuş ərazilərimizdə xidmət edən hərbi qulluqçularımız üçün yeni dəstək aksiyası həyata keçirir.

Aksiya çərçivəsində dekabrın 18-dən başlayaraq Kəlbəcər rayonu, Xocavənd rayonunun işğaldan azad olunmuş hissəsi və Hadrut qəsəbəsində hərbi xidməti davam etdirən əsgər və zabit heyəti üçün, onların istəkləri nəzərə alınmaqla, müxtəlif qida məhsulları, fərdi qulluq və gigiyenik ləvazimatlardan ibarət bağlamaların çatdırılmasına başlanılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti belə tədbir Cəbrayıl və Qubadlı rayonlarında təşkil edilib.

# Tehranda Azərbaycan-İran əlaqələrinin perspektivləri müzakirə edilib

İranda səfərdə olan Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev dekabrın 22-də bu ölkənin energetika naziri Rza Ərdakanian ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə qarşılıqlı əlaqələrin inkişaf perspektivləri müzakirə edilib.

Şahin Mustafayev qeyd edib ki, Azərbaycan İran ilə münasibətlərin inkişafına xüsusi diqqət yetirir. Dünyanı çənginə alan koronavirus pandemiyasına baxmayaraq, dövlətlərimiz arasında müxtəlif sahələr üzrə əlaqələr davam etdirilir. Vurğulanıb ki, iki ölkənin birgə başladığı layihələri uğurla başa çatdırmaq əhəmiyyətlidir. Araz çayı üzərində Xudafərin və Qız Qalası su hidroqovşaqlarının inşasının tamamlanması ölkələrimizin enerji və kənd təsərrüfatı sahələrinə böyük fayda verəcək.

Baş nazirin müavini Qarabağın işğaldan azad olunmasına toxunaraq bildirib ki, Azərbaycan burada geniş tikinti və quruculuq işləri həyata keçirərək regionu yenidən bərpa edəcək. Ötən 7 ildə dövlətlər arasında imzalanan sənədlər üzrə işlər davam etdirilir. Hazırda İran, Azərbaycan və Rusiya arasında elektrik enerjisi mübadiləsi həyata keçirilir ki, bu da tərəflərin hər biri üçün faydalıdır. Azərbaycanın İran ilə sərhəddə yerləşən rayonlarının işğaldan azad edilməsi qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar yaradıb və bu imkandan istifadə etmək zəruridir. Azərbaycan- İran sərhədi dostluq və qardaşlıq sərhədidir və bu, digər dövlətlər üçün nümunədir.

Rza Ərdakanian deyib ki, İran Azərbaycanın işğaldan azad olunan ərazilərində su və elektrik sahəsini bərpa edə bilər. Bu istiqamətdə çalışmaq istəyən çoxlu şirkətlər var. Nazirin sözlərinə görə, İran Qarabağın bərpasında yaxından iştirak etməyə hazırdır.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bu və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

Görüşdən sonra jurnalistlərin sualları cavablandırılıb.

## Milli Məclisin iclasında

# Gələn ilin dövlət büdcəsi zərfi parlamentə təqdim olunub





*Əvvəli 1-ci səh.*

Tahir Mirkişili bir-biri ilə əlaqəli olan "Şərti maliyyə vahidi haqqında" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi barədə və "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələrini də diqqətə çatdırdı. Qeyd etdi ki, 2001-ci il yanvarın 1-dək Azərbaycanda dövlət rüsumlarının, birdəfəlik rüsumların, cərimələrin, maliyyə sanksiyalarının, digər ödənişlərin hesablanmasında aylıq əməkhaqqının minimum məbləğindən istifadə olunub. 2000-ci ilin 26 dekabrında "Şərti maliyyə vahidi haqqında" qanun qəbul edilib. 2008-ci ildən etibarən ölkəmizdə maliyyə sabitliyi olduğundan şərti maliyyə vahidi məbləği mütləq rəqəmlərlə əvəz edilib və Azərbaycan Respublikasının müvafiq məcəllələrində, qanunlarında, digər qanunvericilik aktlarında mütəmadi olaraq dəyişikliklər edilərək şərti maliyyə vahidi anlayışının istifadəsinin dayandırılması istiqamətində tədbirlər görülüb. Hazırda "Şərti maliyyə vahidi haqqında" qanuna ehtiyac qalmadığı üçün bu qanun ləğv edilir.

Həmçinin şərti maliyyə vahidi anlayışına istinad edilən beş qanundan - "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Banklar haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlardan və Mülki Məcəllədən həmin ifadələr çıxarılır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edildi.

İclasda Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında" Əsasnaməyə" dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirəyə çıxarıldı. Bildirildi ki, birinci oxunuş zamanı ortaya çıxan suallar cavablandırılıb və deputatlar tərəfindən layihə ilə bağlı əlavə təklif irəli sürülməyib. Qanun layihəsi ikinci oxunuşda təsdiq edildi.

İclasda son olaraq "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin 15 illiyi (2005-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edildi. Layihə barədə məlumat verən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, müharibə şəraiti dövründə, dağıntıların aradan qaldırılmasında, o cümlədən Gəncə şəhərində, Tərtərdə, Bərdədə və digər yerlərdə dağıntıların aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin əməkdaşları fədakarlıq nümayiş etdiriblər. FHN-in yaradılmasının 15 illiyinə həsr olunan bu medalda milli atributlar da nəzərə alınıb. Bu medalın təsis olunması Azərbaycanın orden və medallarına yeni bir töhfə olacaq.

Müzakirələr zamanı yubiley medalının təsis edilməsi təqdirəlayiq hal kimi dəyərləndirildi. Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

Plenar iclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova nəzərə çatdırdı ki, dekabrın 21-də 2021-ci ilin Azərbaycan Respublikasının dövlət büdcəsinə dair qanun layihələri, büdcə zərfi parlamentə daxil olub və deputatlara paylanılıb. Qanun layihələri komitələrdə müzakirə ediləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində dinləmə keçirilib

Dekabrın 21-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində "Ailənin sosial-psixoloji təminatı və mövcud problemlər" (Pandemiya və postmüharibə dövrü) mövzusunda videokonfrans formatında dinləmə keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova tədbir iştirakçılarını bir daha Qələbə münasibətilə təbrik edib və bildirib ki, biz bu qələbəyə başda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olmaqla rəşadətli ordumuzun gücü, xalqımızın sarsılmaz birliyi nəticəsində nail olmuşuq. O, şəhidlərimizə Allahdan rəhmət diləyib, yaralı əsgərlərə cansağlığı arzulayıb.

Komitə sədri çıxışında deyib ki, bu gün bütün dünya, o cümlədən ölkəmiz COVID-19 pandemiyası ilə mübarizə aparır, eyni zamanda hazırda biz postmüharibə dövrünü yaşayırıq. Bunları nəzərə alaraq hadisələrin ailədaxili münasibətlərə necə təsir etdiyini, neqativ halların aradan qaldırılması istiqamətində görülən işləri, qarşıda dayanan vəzifələri müzakirə edəcəyik. O, belə bir tədbirin keçirilməsinə yaratdığı şəraitə və verdikləri tövsiyələrə görə Milli Məclisin rəhbərliyinə, şəxsən Sahibə Qafarovaya minnətdarlığını ifadə edib, dəvəti qəbul etdiklərinə görə görüş iştirakçılarına təşəkkür edib.

Hicran Hüseynova bildirib ki, Azərbaycanda dövlətin ailə siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlətimizdə ailə institutunun qorunması, inkişafı prioritet məsələlərdən biridir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərirlər. Lakin bununla yanaşı, ailələrdə bir sıra boşluqlar, narahatedici məqamlar var. Bu mövzular hazırda cəmiyyətin və dövlətin diqqətindədir.

Komitə sədri bildirib ki, hazırda Azərbaycanda iki milyon yüz mindən çox ailə var. Çox təəssüf ki, bütün dünyada olduğu kimi, Azərbaycanda da nikahların azaldığını və boşanmaların artdığını müşahidə edirik. Qeyd edilib ki, cari ildə COVID-19 pandemiyası nikahların və boşanmaların sayına təsir göstərib. Bir çox ölkələrdə demoqrafik artım mənfi tendensiya ilə müşahidə olunur. Lakin bütün bunların fonunda biz Azərbaycanın bu çətin günlərdə böyük vahid ailə kimi birləşdiyini gördük. Vətən üçün canından keçən övladları gördük. Onları tərbiyə edən valideynləri gördük. Azərbaycan Prezidentinin öz xalqına sevgisini və siyasi iradəsini gördük.

Hicran Hüseynova qeyd edib ki, pandemiyanın qarşısını almaq üçün sosial təcrid və karantin tədbirləri çox vacibdir. Lakin mütəxəssislərin rəyinə görə, bu, ailə üzvləri arasındakı münaqişələrin, xüsusilə də qadınlara qarşı qəddar davranışların, o cümlədən qlobal səviyyədə məişət zorakılığının artmasına səbəb ola bilər. Bunu nəzərə alaraq karantin dövründə ailədaxili münasibətlərin, şəxslər arasında qarşılıqlı münasibətlərin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Ailədə meydana çıxan çətinliklərin vaxtında üzə çıxarılması, ailə həyatının böhranlı mərhələsində düzgün qərarların qəbul olunması ailə üzvlərinin psixoloji sağlamlığının qorunmasına xidmət etmiş olar.

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında hərbi əməliyyatlarla yanaşı, ölkəmizin dinc əhalisinin də düşmənin təxribatçı hücumlarına məruz qaldığını deyən komitə sədri bildirib ki, bütün bu hadisələri yaşamış insanlar çox ağır psixoloji zərbə alıblar. Uşaqlar valideynsiz qalıb, valideynlər övladlarını itiriblər, çoxsaylı ailələrin evləri tamamilə dağıdılıb. Bu insanları yenidən cəmiyyətə inteqrasiya etmək üçün sosial-psixoloji xidmətin göstərilməsi çox vacibdir. İnsanlarda müharibə daha dərin iz buraxıb. Belə insanlarla mütəxəssislərin görüşməsi, onların vəziyyətinin qiymətləndirilməsi çox vacibdir. Ehtiyacı olanlara isə davamlı yardım göstərilməlidir. Qeyd edilib ki, müvafiq dövlət qurumları, o cümlədən Dövlət Komitəsinin Uşaq və Ailələrə Dəstək mərkəzləri, qeyri-hökumət təşkilatları öz fəaliyyətləri sahəsində müəyyən işlər görürlər. Bu işlər daha da gücləndirilməlidir.



Komitə sədri ölkə başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqlarına əsasən, zəruri tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Qeyd edib ki, Koronavirusla Mübarizəyə Dəstək Fondu, Müdafiə Fondu, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondu yaradılıb. Lakin bu məsələdə hər birimizin üzərinə böyük məsuliyyət düşür.

Bildirilib ki, pandemiya və postmüharibə dövründə yaranmış vəziyyətdə ailələrin sosial-psixoloji durumunun qiymətləndirilməsi, bu sahədə mövcud problemlərin aradan qaldırılması ilə bağlı lazımi tədbirlərin həyata keçirilməsi, o cümlədən qanunvericiliyin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Onlayn tədbirdə iştirak edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova söyləyib ki, Azərbaycanda ailə institutunun tarixi çox qədimdir və milli-mənəvi dəyərlərə bağlı olan sosial bir qurum kimi müasirliyə də hər zaman açıq olub. Ailə cəmiyyətin sosial əsasıdır. Ailənin cəmiyyət və dövlət həyatında özünəməxsus yeri və rolu var. Ailədə həm adət-ənənə, həm idarəçilik, həm birgə təsərrüfat vərdişləri aşılanır. Eyni zamanda bunların hamısı sosial-psixoloji təminatlara bağlıdır. Bu təminatların mövcudluğu obyektiv və subyektiv səbəblərə bağlıdır və iqtisadi vəziyyətin təsiri burada daha çox hiss olunur.

Xüsusi vurğulanıb ki, bütün dövlət orqanları, vətəndaş cəmiyyəti nümayəndələri birləşərək həm düşməni dəf etməyə, həm zərər çəkmiş ailələrin problemlərini həll etməyə müvəffəq oldular. İnsanların sosial-psixoloji durumlarının yaxşılaşdırılması istiqamətində tədbirlər, həmçinin ünvanlı sosial yardımların verilməsi, "Əsgərə sovqat" aksiyasının keçirilməsi təqdirəlayiqdir. Bütün bunlarla yanaşı, qanunvericilikdə də müvafiq dəyişikliklərin edilməsinin vacibliyi bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov məsələnin aktuallığını vurğulayaraq deyib ki, nazirlik tərəfindən yeni təşəbbüsə başlanılıb. Şəhid ailələrinə, yaralılara, müharibədən əziyyət çəkən mülki şəxslərin ailə üzvlərinə psixoloji dəstək proqramları həyata keçirilir və bu işə mütəxəssislər cəlb edilib. Pandemiyanı nəzərə alaraq bu xidmətlər həm onlayn formatda, həm də səyyar şəkildə həyata keçirilir. Qısa müddət ərzində psixoloqlar və psixiatrlar tərəfindən 1630 ailəyə belə səfərlər təşkil edilib və ehtiyacları üzrə müxtəlif seanslar keçirilib. Həmçinin noyabrın 10-dan başlayaraq bu günədək 1300-dək şəhid ailəsinə sosial təminat tədbirləri həyata keçirilib. Dekabrda yeni elektron xidmətlər istifadəyə verilib ki, bunun da bir çox üstünlükləri var. Qeyd edilib ki, məişət zorakılığının qarşısının alınması istiqamətində də lazımi tədbirlər görülür və bu sahədə Qeyri-Hökumət Təşkilatları ilə birgə əməkdaşlıq edilir.

Videokonfransda iştirak edən daxili işlər nazirinin müavini Oruc Zalov, təhsil nazirinin müavini Firudin Qurbanov, idman və gənclər nazirinin müavini İntiqam Babayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Ədliyyə Nazirliyinin Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidmətinin rəisi Reyhanə Kərimova, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Nabil Seyidov ailənin sosial-psixoloji mühitinin düzgün formalaşması, ortaya çıxan problemlərin, o cümlədən məişət zorakılığının aradan qaldırılması, pandemiya və postmüharibə dövründə ailədaxili münasibətlərin öyrənilməsi və digər zəruri məsələlərdən danışıblar.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvləri Jalə Əliyeva və Rəşad Mahmudov çıxış edərək pandemiya və Vətən müharibəsinin ölkədə yaratdığı çətinliklərdən söhbət açıblar. Problemlərin həll edilməsi istiqamətində dövlət və vətəndaş həmrəyliyinin vacibliyini vurğulayıblar. Ailələrin sosial-psixoloji durumunun yaxşılaşdırılması sahəsində maarifləndirmə işinin əhəmiyyətli olduğunu bildiriblər.

Tədbirdə aidiyyəti qurumların, vətəndaş cəmiyyətinin nümayəndələrinin iştirakı ilə mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb, müxtəlif təkliflər səsləndirilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova konfransa yekun vuraraq məsələnin vacibliyini bir daha qeyd edib və səsləndirilən bütün təkliflərin nəzərdən keçiriləcəyini bildirib.

◆Prezidentə yazırlar



# «44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu bir daha göstərdi»

*Əvvəli 1-ci səh.*

### "Erməni terrorçuları tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməklə Siz bütün türklərin başını göylərə qaldırdınız"

Antalya şəhərindən **Veysel Barkan İpək**: "Cənab Müzəffər Ali Baş Komandanım, erməni terrorçuları tərəfindən işğal olunmuş torpaqlarımızı azad etməklə Siz bütün türklərin başını göylərə qaldırdınız. Türkiyədə yaşayan hər bir insan Sizin möhtəşəm Qələbənizə, Azərbaycan Ordusunun və Azərbaycan xalqının Zəfərinə ürəkdən sevinir. Torpaqlarımızın azadlığı yolunda şəhid olan əsgərlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, ailələrinə isə səbir diləyirik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Yaşasın türk milləti! Yaşasın Müzəffər Ali Baş Komandanımız İlham Əliyev!"

### "Cənab Prezident, bu tarixi Zəfər bayramını bizə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk"

Ağdam sakini **Valeh Abdullayev**in məktubunda deyilir: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Siz bizə ən xoş günlərimizi, ən xoş arzularımızı Cəbrayılın, Zəngilanın, Xocalının, Füzulinin, Xocavəndin, Ağdamın, Ağdərənin, Xankəndinin, Kəlbəcərin, Laçının, Azərbaycanın döyünən ürəyi olan Şuşanın işğaldan azad edilməsi və Qələbəmizin təmin olunması xəbərlərini bizə çatdırmaqla yaşatdınız, 27 illik Vətən həsrətimizə son qoydunuz. Dünyaya göz açdığım doğma Ağdamın Güllücə kəndinə qayıdacağımız gün yaxındadır. Bu tarixi Zəfər bayramını bizə yaşatdığınız üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk, cənab Prezident! Uca Tanrı Sizə yar olsun! Eşq olsun Müzəffər Ali Baş Komandanımıza! Yaşasın rəşadətli Ordumuz!".

### "İnanıram ki, Siz cənnət Qarabağımızı yaxın gələcəkdə gülüstana çevirəcəksiniz"

Şuşa sakini **Elcan Mirzəyev:** "Cənab Ali Baş Komandan, hazırda Azərbaycan xalqı tarixinin ən gözəl günlərini yaşayır. Mən özüm də əslən Şuşa rayonundanam. Bizə bu sevinci yaşatdığınız üçün Sizə təşəkkür edirəm. Siz Azərbaycan tarixinə adınızı qızıl hərflərlə yazdırdınız. Vətənim Şuşa şəhəri Sizin sayənizdə azadlığa qovuşdu. Sizin 17 illik hakimiyyətiniz müddətində Azərbaycan böyük inkişaf yolu keçib, regionda iri iqtisadi layihələr reallaşdıraraq dünyada söz sahibinə çevrilib. Hazırda Azərbaycan inkişafına görə Avropa ölkələri ilə müqayisə ediləcək səviyyədədir. Həmçinin əhalinin rifahı yüksəlib, ölkəmizdə turizm sahəsi inkişaf edib. Eyni zamanda Azərbaycan beynəlxalq idman yarışlarına evsahibliyi edir. Ölkəmizi dünyada tanıtdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha da inkişaf edəcək və yaxın zamanda dünyanın supergücünə çevriləcək. Siz xalqımızın xoşbəxtliyində çox böyük rol oynamısınız. İnanıram ki, Siz cənnət Qarabağımızı yaxın gələcəkdə gülüstana çevirəcəksiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm".

### "Bu Qələbə Sizin müdrik siyasətinizin, gecə-gündüz əzmlə çalışmağınızın nəticəsidir"

İmişlidən **Əzizxan Hüseynov:** "Hörmətli cənab Prezident, bütün Azərbaycan vətəndaşları kimi, mən və ailə üzvlərim də Sizə və Mehriban xanıma cansağlığı, yenilməz, müzəffər Ordumuza Qələbə uğurları arzulayırıq. Qoy Ulu tanrı xalqımıza kömək olsun! Şükür Allaha ki, Ordumuz qanı ilə, canı ilə tarixi Qələbəni qazandı. Mümkün qədər az itki ilə qazanılmış bu Qələbə Sizin müdrik siyasətinizin, gecə-gündüz əzmlə çalışmağınızın nəticəsidir. Sizə edilən bütün xoş alqış və dualar halaldır. Allah Sizi qorusun! Azərbaycan Respublikasının Prezidenti kimi Sizinlə fəxr edirik".

### "Cənab Prezident, Sizi "Azərbaycanın Milli Qəhrəmanı" kimi görmək istəyirik"

Şəkidən **Mikayıl Qeybullayev:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bu gün bütün Azərbaycan qürur hissi ilə Sizin müdrikliyinizdən, uzaq gələcəyə yönələn tədbirlərinizdən və bütün bunların uğurlu nəticəsi olaraq erməni faşizmi üzərində parlaq qələbənizdən, əzəli topaqlarımızın azad edilməsindən danışır. Bizim Zəfərimiz bütün dünyanı silkələmiş, mat vəziyyətinə salmışdır. Qısa müddət ərzində "dəmir yumruq" mənfur düşmənin başını elə əzmişdir ki, o, uzun müddət özünə gələ bilməyəcək. Cənab Prezident, Siz öz bacarığınız, mətinliyiniz, dönməzliyiniz və ən əsası, torpaqlarımızın düşmən tapdağından qurtulması məqsədilə çoxmillətli Azərbaycan xalqını birləşdirməyə nail oldunuz. Müharibə dövründə 30-dan çox xarici informasiya kanalına verdiyiniz dolğun müsahibələrinizlə Siz sübut etdiniz ki, Ulu Öndər məktəbinin yetirməsisiniz. Səbriniz, iradəniz, sualları cavablandırmaq tərziniz, diplomatiyanız "prokuror" kimi sorğu-sual edənləri şoka salmışdı. Onlar şərtlə gəlib suyu süzülə-süzülə qayıtdılar. Bu, milyonlarla insanın Azərbaycan, münaqişə haqqında fikirlərinin dəyişməsinə, bəzi ölkə başçılarının utancına səbəb oldu. Dünyanın hər yerində milyonlarla insan Sizi öz kumirinə çevirdi, çalışdı ki, mədəniyyəti, hazırcavablığı, savadı ilə Sizə oxşasın, Sizi təlqin etsin. Hörmətli cənab Prezident, biz Sizi "Azərbaycanın Milli Qəhrəmanı" və ən yüksək hərbi vəzifə daşıyan insan kimi görmək istəyirik. Siz buna layiq Vətən oğlusunuz! Yaşasın Müzəffər Odumuz! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

### "Sizin uzaqgörən siyasətiniz nəticəsində Qarabağ torpaqları düşmən işğalından azad edildi"

Ağsudan **Sənəm Məmmədova** yazır: "Hörmətli cənab Prezident, Sizin uzaqgörən siyasətiniz nəticəsində Qarabağ torpaqları düşmən işğalından azad edildi. Buna görə Sizə dərin təşəkkürümü bildirirəm. Allah Ulu Öndərimiz Heydər Əliyevə rəhmət eləsin, Sizin kimi cəsur və dərin zəkalı, savadlı övlad yetişdirib. Əziz Prezidentimiz, Sizə möhkəm cansağlığı arzulayıram. Sizinlə fəxr edirik. Qarabağ Azərbaycandır!"

### "Qarabağ münaqişəsini birdəfəlik həll etdiyiniz üçün Sizə minnətdarıq"

Şəkidən **Gülnar Əlizadə:** "Cənab Müzəffər Ali Baş Komandan, Qarabağ münaqişəsini birdəfəlik həll etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Siz böyük, yorulmaz səylər göstərməsəydiniz, hazırda Qarabağ yenə mənfur düşmənin tapdağı altında olardı. Cənab Prezident, arzu edirəm ki, Siz daim Azərbaycan Respublikasının Ali Baş Komandanı olasınız. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

### "Cənab Prezident, 44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu bir daha göstərdi"

Sumqayıt şəhər sakini **Vüsalə Hacıyeva:** "Möhtərəm cənab Prezident, icazə verin, möhtəşəm Qələbə münasibətilə Sizə dərin minnətdarlığımı bildirim. Siz təqvimdəki işğal günlərini ləğv edib, bizə Zəfər Günü yaşatdınız. Mənim uşaqlığım doğma Qubadlıda, Cəbrayılda keçib. Lakin uzun illər idi ki, işğal altında olan ata-baba yurdlarımıza həsrət qalmışdıq. Buna baxmayaraq, hər zaman ürəyimizdə bir inam var idi ki, Ali Baş Komandanımız mütləq torpaqlarımızı işğaldan azad edəcək. Həmin gün, nəhayət ki, gəlib yetişdi. Şükür Allaha ki, bu günləri yaşamaq bizə nəsib oldu. Çox xoşbəxtəm ki, səs verdiyim, dəstəklədiyim, qəlbən inandığım Prezident işğal altında olan bütün torpaqlarımızı azad etdi. Cənab Prezident, 44 günlük müharibə bütün dünyaya Sizin necə müdrik siyasi xadim, diplomat və güclü sərkərdə olduğunuzu, müzəffər Ordu qurduğunuzu bir daha göstərdi. Sizin televiziya vasitəsilə etdiyiniz bütün çıxışları ailəlikcə sevə-sevə dinlədik və paylaşdıq, Sizinlə hər zaman qürur duyduq və bir an belə ümidsizliyə qapılmadıq. Siz təkcə torpaqlarımızı deyil, bizim uşaqlıq xatirələrimizi işğaldan azad etdiniz. İndi mən Cəbrayılda, Qubadlıda babalarımın evlərini ziyarət edəcəyəm, o yerləri bir də görəcəyim günü səbirsizliklə gözləyirəm. Bu xoşbəxtliyi bizə nəsib etdiyiniz üçün Sizə sonsuz minnətdarlığımı bildirirəm. Sizin rəhbərlik etdiyiniz ölkədə yaşadığım üçün çox xoşbəxtəm. Allah hər zaman Sizə kömək olsun!"

### "Cənab Prezident, xalqla olan birliyiniz Sizin Zəfər yolunuza işıq saldı"

Şirvan şəhərindən **Mədinə İbadova:** "Cənab Ali Baş Komandan, bu gün bütün Azərbaycan xalqı Sizin komandanlığınız altında gerçəkləşən tarixi Zəfərin qürurunu yaşayır. Siz bu qələbənizlə min illərə söykənən tariximizdə hər sətri qızıl hərflərlə yazılan yeni səhifə yaratdınız. Gücümüzü bütün dünyaya nümayiş etdirdiniz. 30 ilə yaxındır azadlıq həsrəti ilə çırpınan Qarabağımızda qaldırdığınız Zəfər Bayrağı bizim hər birimizin qürur mənbəyidir. Möhtərəm cənab Prezident, hər bir vətəndaşımız bu müqəddəs amal uğrunda apardığınız haqq mübarizəsində Sizin ətrafınızda bir yumruq kimi birləşərək, Sizinlə birgə addımladı və bundan sonra da addımlayacaq. Xalqla olan birliyiniz Sizin Zəfər yolunuza işıq saldı. Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhadətə yüksələn şəhid övladlarımızın ailələrinə, qazilərimizə göstərdiyiniz hərtərəfli diqqət və qayğı Sizin ölkəmizin hər bir vətəndaşına verdiyiniz ali dəyərin təzahürüdür. Biz Sizinlə fəxr edirik. Var olun, cənab Ali Baş Komandan!"

### "Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq onun nəsihətlərini, vəsiyyətini yerinə yetirdiniz"

Gəncə şəhərindən **İkram Kərimov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən hər zaman Sizin siyasətinizi dəstəkləmişəm. Siz 27 il həsrətində qaldığımız dədə-baba torpaqlarımızı özümüzə qaytardınız. Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq onun nəsihətlərini, vəsiyyətini yerinə yetirdiniz. Cənab Prezident, Sizə və Türkiyə Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğana çox minnətdaram. İndi çox rahatam, öz ata-baba yurdum olan Kəlbəcər rayonunun Ağyataq kəndinə qayıdacağam, atamın məzarını ziyarət edəcəyəm. Bir arzum da var, doğma kəndimə qayıdaraq Sizin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ayaqları altında qurban kəsim. Allah hər ikinizi qorusun. İnşallah, 100 illik yubileylərinizi Şuşada, Kəlbəcərdə qeyd edəsiniz. Cənab Prezident, istərdim ki, kəndimizdə yerləşən civə zavodunun fəaliyyəti tezliklə bərpa edilsin. Cənab Prezident, Sizə uzun ömür, möhkəm cansağlığı arzulayır, torpaqlarımızın azad olunması münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edirəm. Daha bir arzum isə Sizə "Marşal" hərbi rütbəsinin verilməsidir".

### "Mən xoşbəxtəm ki, Sizin kimi bir müdrik lideri olan ölkədə yaşayıram"

Bakı şəhər sakini **Bəhrəm Hüseynli:** "Cənab Ali Baş Komandan, Sizə dərin təşəkkürümü bildirirəm ki, bizə bu sevincli günləri yaşatdınız. Mən xoşbəxtəm ki, Sizin kimi bir müdrik Lideri olan ölkədə yaşayıram. Sizinlə qürur duyuram. Allah Sizə uzun ömür, cansağlığı versin. Qarabağ Azərbaycandır!"

### "Cənab Prezident, bu Qələbənin qazanılmasında Sizin cəsarətiniz, uzaqgörənliyiniz, vətənpərvərliyiniz, liderə xas olan bütün keyfiyyətləriniz əsas rol oynadı"

Qusar rayonundan **Fərid Babayev** yazır: "Hörmətli cənab Prezident, sentyabrın 27-dən sonra yaşadığımız günlər tariximizin unudulmaz və parlaq səhifəsidir. 30 il ərzində gözlədiyimiz, arzuladığımız nəticəni cəmi 44 gündə əldə etdik. Bu Qələbənin qazanılmasında Sizin cəsarətiniz, uzaqgörənliyiniz, vətənpərvərliyiniz, liderə xas olan bütün keyfiyyətləriniz əsas rol oynadı. Lider-xalq birliyi, hərtərəfli hazırlıqlı yenilməz Azərbaycan Ordusu Qələbəmizin əsasını təşkil etdi. Siz bu Qələbə ilə bütün dünyaya sübut etdiniz ki, torpaqlarının işğalı ilə barışmayan mübariz Azərbaycan xalqı var. Düşməni məğlub etməklə həm də bölgədə qara ləkə olan erməni faşizmini məhv etdiniz. Yenilməz Azərbaycan Ordusuna eşq olsun! Tanrı Sizi qorusun! Qarabağ Azərbaycandır!"

### "Cənab Prezident, torpaqlarımız Sizin qətiyyətli addımlarınız, ordu quruculuğu sahəsində apardığınız uğurlu siyasət nəticəsində 44 gün ərzində işğaldan azad olundu"

Abşeron rayonundan **Rahib Abdullayev:** "Cənab Müzəffər Ali Baş Komandan, Sizin yürütdüyünüz uzaqgörən siyasət nəticəsində bu gün Azərbaycan xalqı bayram edir. Möhtəşəm Qələbə münasibətilə Sizi şəxsən öz adımdan, ailəmin adından ürəkdən təbrik edir, Sizə və müzəffər Ordumuza təşəkkürlərimizi bildiririk. Otuz ilə yaxın müddətdə düşmən tapdağı altında qalan torpaqlarımız Sizin qətiyyətli addımlarınız, ordu quruculuğu sahəsində apardığınız uğurlu siyasət nəticəsində 44 gün ərzində işğaldan azad olundu. Bu sevincli günləri xalqımıza yaşatdığınız üçün Allah Sizi, cəsur hərbçilərimizi qorusun. Uca Yaradan Sizin kölgənizi Azərbaycan xalqının üzərindən əskik etməsin. Qarabağ Azərbaycandır!"

### "Ulu Öndərimiz bizə azərbaycanlı olmağımızın fəxrini yaşatdı, Siz isə azərbaycanlı olmağımızın qürurunu"

Bakı sakini **Aqşin Nəzərov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, mən 1997-ci ildən televiziya sahəsində çalışıram. O vaxtdan bu günədək ölkədə baş verən bütün ictimai-siyasi hadisələrin canlı şahidiyəm - Ulu Öndər Heydər Əliyevin torpaqlarımızın işğalının qarşısını almasından Sizin kimi Fatehin ərazilərimizi azad etməsinə qədər. Cənab Prezident, sağ olun ki, bizə bu duyğuları yaşatdınız. Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Çox heyif ki, o zaman Sizin kimi Komandanımız olmadı. On mindən artıq hərbçi şəhid oldu, ərazilərimiz qəsb edildi, mülki əhaliyə divan tutuldu, insanlar evlərindən didərgin düşdülər. Bir televiziya işçisi kimi bundan sonra Sizin sayənizdə ağrılı-acılı işğal günləri, soyqırımları haqqında deyil, zəfər, qürurlu qələbə dolu proqramlar hazırlayacağıq. Ulu Öndərimiz bizə azərbaycanlı olmağımızın fəxrini yaşatdı, Siz isə azərbaycanlı olmağımızın qürurunu. Dəmir yumruq İlhamdır, Qarabağ Azərbaycandır!"

### "Cənab Ali Baş Komandan, Sizin hərbçilərə verdiyiniz dəyər hamımızı daha böyük qələbələrə ruhlandırır"

Beyləqandan **Nurlan Vəlişov** yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizin hərbçilərə verdiyiniz dəyər hamımızı daha böyük qələbələrə ruhlandırır. Adımın "Cəsur döyüşçü" medalı ilə təltif olunanların siyahısında olması məni və ailə üzvlərimi çox sevindirdi. Şəxsən öz adımdan və ailəmin adından Sizə möhkəm cansağlığı, uğurlar, daim ailənizin və dövlətimizin başında olmağınızı arzu edirəm. Var olun, Allah Sizi qorusun!"

### "Sizin rəhbərliyinizlə qazanılan zəfərlərdən sonra Azərbaycan üçün yeni dövr başlayır"

Şamaxıdan **Mikayıl İsmayılov:** "Hörmətli cənab Ali Baş Komandan, Sizi Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edirəm. Sizin rəhbərliyinizlə qazanılan zəfərlərdən sonra Azərbaycan üçün yeni dövr başlayır. Yeni dövrdə biz artıq qalib xalq kimi çıxış edəcəyik. Biz bu şərəfli adı Sizin uzun illər yorulmadan göstərdiyiniz səylərin, gərgin fəaliyyətinizin, xalqımızın birliyinin, şəhidlərimizin canı, qanı sayəsində əldə etdik. Sizin uzaqgörən siyasətiniz sayəsində şanlı Ordumuz Azərbaycanın adını ucaltmağa nail oldu. Biz artıq öz gücümüzə inanan, gələcəyə nikbin baxan xalqıq. Sizə uzun ömür, cansağlığı arzu edirəm. Uca Allah Sizi xalqımızın üstündən əskik etməsin".

## *Prezident İlham Əliyev:*

# "Azərbaycan pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayır"




"Azərbaycan pandemiya dövründə də iqtisadi sahədə yaxşı nəticələr göstərir. Təkcə onu demək kifayətdir ki, bu gün dünyada 150-dən çox ölkə yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib. Yəni onların daxili maliyyə resursları imkan vermir ki, lazım olan işlər görülsün. Azərbaycanın bu siyahıda adı yoxdur.

Biz o ölkələrdənik ki, öz gücümüzə bu bəla ilə mübarizə aparırıq. Onu da bildirməliyəm ki, biz artıq 10-dan çox ölkəyə yardım göstərmişik, yük təyyarələri, tibbi ləvazimat, dezinfeksiya materialları göndərmişik. Bəzi ölkələrə maliyyə yardımı göstərmişik. Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə donor ianəsi etmişik. Belə ölkələrin sayı o qədər də çox deyil. Bu, bizim məsuliyyətimizi göstərir. Onu göstərir ki, biz pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayırıq".

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 103-cü kitabında yer alan bu fikirlər dövlət başçısının bu il mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin Tibbi Maska Fabrikinin və Tikiş Fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılış mərasimindəki çıxışından götürülüb.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci ilin may-iyun aylarını əhatə edir.

Yeni kitabda Prezident İlham Əliyevin Rusiyanın TASS İnformasiya Agentliyinə və "Natsionalnaya oborona" jurnalına müsahibələri, Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava və bank rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda, paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıtda və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxanaların açılışı mərasimlərində çıxışlarının mətnləri toplanılıb.

Nəşrdə dövlət başçısının Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılış mərasimindəki çıxışı, Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışı zamanı Azərbaycan Televiziyasına müsahibəsi də yer alıb. Həmçinin yeni kitaba Prezident İlham Əliyevin Rusiya, Ukrayna, Türkiyə, Qazaxıstan prezidentləri ilə telefon danışıqlarına dair informasiyalar, bir sıra dövlət başçılarına və beynəlxalq təşkilatların rəhbərlərinə məktubları daxil edilib.

Bu cilddə oxucular Azərbaycan Prezidentinin Şamaxı, Tərtər, Ağdam və Ağcabədi rayonlarına səfərləri zamanı infrastruktur obyektlərinin, o cümlədən "ASAN xidmət" mərkəzlərinin, mədəniyyət müəssisələrinin, xəstəxanaların açılışı, ictimaiyyət nümayəndələri ilə görüşləri barədə materiallarla da tanış ola bilərlər.

Dövlət başçısı bütün görüşlərində və apardığı danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsi barədə ətraflı məlumat verib, uzun illərdir Azərbaycanın terrorizmdən əziyyət çəkdiyini, işğalçı Ermənistanın xalqımıza məxsus qədim dini və digər maddi mədəniyyət abidələrini dağıtdığını diqqətə çatdırıb.

"Azərnəşr" tərəfindən buraxılan çoxcildliyin 103-cü kitabının hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# “Qarabağ Azərbaycandır!” deyib, onu reallığa çevirən LİDER



**Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyev ötən 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk fateh dövlət başçısıdır. Bir il öncə “Qarabağ Azərbaycandır və nida işarəsi” bəyan edən Ali Baş Komandanın taktiki strategiyası, müdrik qərarları, Müzəffər Ordu quruculuğu sayəsində hazırda “Qarabağ Azərbaycandır” bəyanatı gerçək və real bir həqiqətdir.**

Azərbaycanın böyük Qarabağ zəfərinə nail olmasında üç əsas komponentin böyük əhəmiyyəti var. Birincisi, Azərbaycan iqtisadiyyatının inkişafıdır ki, bu konsepsiyanın əsasını Ümummilli Lider Heydər Əliyev qoymuşdur. “İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir” deyən Azərbaycanın dahi rəhbəri güclü ölkənin bünövrəsini qoyacaq iqtisadi islahatlara başlamış və böyük dövlətlərin Azərbaycanda iqtisadi maraqlarını balanslaşdıran “Əsrin müqaviləsinin” imzalanmasına nail olmuşdur. Beləliklə, Azərbaycan Avropanın, Qərbin enerji təhlükəsizliyində söz sahibinə çevrilmiş və iqtisadi inkişafın, dövlət müstəqilliyinin möhkəm təminatının bünövrəsi qoyulmuşdur. Azərbaycanın bu uğurlarını davam etdirən İlham Əliyev peşəkar siyasətçi, diplomat kimi atası - Ulu Öndər Heydər Əliyevin Qarabağı işğaldan azad etmək vəsiyyətini gerçəkləşdirmək üçün böyük daxili islahatlar apardı, ölkəmizin strateji müttəfiqi olan Türkiyə ilə bütün sahələrdə əlaqələri daha yüksəklərə daşıdı.

Unutmayaq ki, Qarabağdan, eləcə də İrəvandakı öz doğma torpaqlarından qovulan 1 milyondan çox qaçqın və məcburi köçkünün olmasının yaratdığı əlavə iqtisadi çətinliklərə baxmayaraq, İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasət, institusional və kadr dəyişiklikləri nəticəsində ciddi inkişaf əldə olundu, ölkənin büdcəsi artdı və valyuta rezervləri formalaşdı. Əhalinin gəlirlərinin ilbəil yüksəlməsi onların maddi vəziyyətinin yaxşılaşmasına, məşğulluq problemlərinin həllinə kömək etdi.

Azərbaycanın iqtisadi qüdrətinin analoji davamı olaraq, ölkənin hərbi büdcəsi də artdı və burada ikinci komponent kimi məhz ordu quruculuğunu, Dəmir Yumruğumuzun formalaşmasını qeyd etməliyik. Azərbaycanın hərbi arsenalının müasir silahlarla təchiz olunması, Azərbaycan Ordusunun şəxsi heyətinin sosial vəziyyətinin yaxşılaşdırılması, onların təhsil almasına xüsusi diqqət yetirilməsi, xaricdə təhsil alan zabit heyətinin formalaşdırılması, birgə təlimlərin keçirilməsi Azərbaycanın Şanlı Ordusunu gücləndirdi. Nəticədə Azərbaycan ordu quruculuğunda böyük uğurlara nail oldu və beşinci nəsil döyüşə bilən, müasir silah arsenalına malik bir Milli Ordumuz formalaşdı.

Üçüncüsü uğurlu xarici siyasət amilidir ki, güclü iqtisadiyyat və qüdrətli ordunun formalaşmasından sonra qarşıya qoyulan ali məqsədlərə çatmaq üçün bu, çox mühüm əhəmiyyət daşıyırdı. Burada biz təməli Ulu Öndər tərəfindən qoyulan balanslaşdırılmış xarici siyasətin uğurla davam etdirilməsini qeyd edə bilərik. Biz yaxın qonşularımız Rusiya, İran ilə əməkdaşlığı qoruyub saxlayaraq, Türkiyə ilə münasibətlərimizi artıq strateji müttəfiqlik, qardaşlıq səviyyəsinə qaldırmışıq. Təsadüfi deyildir ki, “Can Azərbaycan” kəlməsi ilə Azərbaycan xalqına müraciət edən Türkiyənin dövlət başçısı Rəcəp Tayyib Ərdoğan Azərbaycan Prezidentinə “Dostum, qardaşım, şəxsinə böyük hörmətim olan İlham Əliyev” deyə xitab edir. Bu, əlbəttə, Türkiyə-Azərbaycan münasibətlərində ən yüksək mərhələdir. Eyni zamanda İlham Əliyev Avropa Birliyi ilə güclü ticari əlaqələrimizin qurulmasına, xüsusilə də Avropanın Şərq ölkələri ilə münasibətlərinin daha möhkəm olmasına böyük töhfələr verdi, nəticədə onların enerji təhlükəsizliyində Azərbaycan müstəsna yer tutdu. Xatırladaq ki, həmin dövlətlərin bir çoxu Avropa Birliyinin, NATO-nun üzvüdür və bu qurumlarda tərəfdaşların olması Azərbaycana əlavə siyasi monevr imkanları yaratdı. Diqqət yetirsəniz, Azərbaycan Qoşulmama Hərəkatından başqa, heç bir regional, hərbi birliklərə üzv olmur və öz baxışlarında daha çox ikitərəfli münasibətlərin qurulmasına tərəfdardır.



Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə dünyanın böyük gücləri, həmçinin türkdilli dövlətlər, eyni zamanda Ukrayna, İsrail, Pakistan kimi müttəfiqlər, eləcə də digər Şərqi Avropa ölkələri məhz uğurlu iqtisadi-siyasi münasibətlər nəticəsində bizə Qarabağın azad olunmasında siyasi və mənəvi dəstək verdilər. BMT-nin Təhlükəsizlik Şurasında Minsk qrupu ölkələrinin nümayəndələrinin Azərbaycanın haqq savaşına təzyiq vasitəsi kimi hazırladıqları bəyanat məhz Qoşulmama Hərəkatına daxil olan ölkələr, həmçinin Böyük Britaniyanın etirazı ilə rədd olundu.





Yuxarıda sadaladığımız amillər sözsüz ki, bizim qələbəmizi şərtləndirən əsas faktorlardır, ancaq bir nömrəli amil İqtidar-Xalq, İlham Əliyev-Xalq, Xalq-Ordu Birliyidir. Azərbaycan xalqı öz liderinin ətrafında bir yumruq kimi sıx birləşərək, Qarabağımızın azad olunması uğrunda bütün səylərini ortaya qoydu və öz qəhrəmanlığı ilə dünyanı yaxşı mənada təəccübləndirdi. Nəticədə Qarabağ məsələsində Azərbaycan xalqı siyasi, həlledici, qərarverici bir səviyyəyə yüksəldi. Cənab Prezidentin özünün də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan xalqının bu birliyinin təcəssümü olan “Dəmir Yumruq” düşmənin başına endirildi, 30 ilə yaxın müddətdə torpaqlarımızın 20 faizini işğalda saxlayan Ermənistan ordusunu darmadağın etdi. Vətənpərvər, rəşadətli Azərbaycan Silahlı Qüvvələri bir-birinin ardınca rayon və kəndlərimizi, eyni zamanda noyabrın 8-də Qarabağın ürəyi olan Şuşa şəhərini düşmən tapdağından qurtardı. Noyabrın 10-da düşmənin imzaladığı kapitulyasiya bəyanatına əsasən ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı təmin edildi, bununla da doğma torpaqlarımızdan didərgin düşən məcburi köçkünlərimizin, ümumiyyətlə, bütövlükdə Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyuldu. Prezident İlham Əliyevin müdrik rəhbərliyi, mükəmməl siyasi bacarıqları sayəsində əldə edilən bu möhtəşəm qələbə tariximizə qızıl hərflərlə yazıldı.

Dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclasındakı tarixi nitqi yenə də bütün həqiqətlərin, qalib Azərbaycanın mesajlarının aidiyyəti kürsülərə çatdırılmasına xidmət etdi. Şanlı Ordumuzun qəhrəmanlığı ilə Ermənistan ordusunun 80 faizinin məhv olduğunu diqqətə çatdıran Prezident bu münaqişənin artıq keçmişdə qaldığını vurğuladı. “Bu, artıq tarixdir” dedi, həqiqətən də azərbaycanlıların “Dəmir Yumruğu” ilə yazılan zəfər tarixidir. Və bu tarixin döyüş meydanında qəhrəmanları bizim unudulmaz şəhid və qazilərimiz, hərbi siyasi meydanda qəhrəmanı isə cənab Prezident İlham Əliyevdir.

Qətiyyətlə demək olar ki, İlham Əliyev islahatçı praqmatik rəhbər və idarəçilik səriştəsi olan, informativ hazırcavablığı ilə də terrorçu qonşu düşmənin istər dünənki, istərsə də hazırkı rəhbərlikləri ilə müqayisədə öz məharəti, dolğun və diplomatik məntiqi ilə qalib liderdir. Onun Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan Ordusu “böyük Ermənistan” mifini darmadağın etdi. İlham Əliyev XIX əsrin əvvəli Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələrindən başlayaraq Qarabağda köç salan, tarixi-əzəli Azərbaycan torpaqlarının toponomiyasını dəyişən, erməniçilik-daşnakçılığın “dənizdən dənizə” xülyası ilə beyinləri yuyulan ermənilərə Azərbaycan torpaqlarında yaşadıqlarını və tarixi torpaqlarımız olan İrəvan xanlığında dövlət qurduqlarını bəyan edən böyük liderdir.

“Qarabağ tarixi Azərbaycandır” aksiomunu beynəlxalq kürsülərdən qürurla səsləndirən, qurucu, yaradıcı, torpağına azadlıq gətirən, Azərbaycan Ordusuna və xalqına arxalanan İlham Əliyev Azərbaycanın dövlət sərhədlərini bərpa edən, ermənilərin 30 illik işğal siyasətini pozan, Qarabağa azadlıq-sülh-rifah gətirən Ali Baş Komandandır. Bu yolda onun həm ön cəbhədə yoldaşı, həm də mənəvi sirdaşı olan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın da əməyi böyükdür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən bir dövlət xadimi olmaqla yanaşı, milli dəyərlərə böyük sevgisi, humanizmi, nəcib xanımlığı ilə xalqımızın qəlbində dərin ehtiram qazanıb.

Məlumdur ki, hazırda bütün dünyada iqtisadi inkişaf zəifləyib və bəzi böyük dövlətlərdə resessiyaların şahidi oluruq. Buna baxmayaraq, Azərbaycan 2021-ci ilə iqtisadi inkişaf hədəflərini açıqlayıb və qarşıda ölkə iqtisadiyyatını yenidən qaldırmaq, inkişaf etdirmək, 30 il ərzində məhv edilmiş Qarabağ torpaqlarını yenidən dirçəltmək kimi şanlı missiya dayanır. Bu məqsədlə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti artıq müvafiq infrastruktur işlərinə başlayıb. Bütün müharibə dövründə dövlət başçısının ətrafında sıx birləşərək “Dəmir Yumruğ”un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə fəaliyyətlərini daha da gücləndirəcək. Bu məqsədlə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın potensial imkanlarından istifadə etmək məqsədilə geniş tədbirlər görür. Bu gün Qarabağda sökülüb viran qoyulan, iqtisadi infrastrukturu dağılan bütün obyektləri birlikdə tikəcəyik. Dövlətimizin qüdrəti, müdrik rəhbərimiz İlham Əliyevin rəhbərliyi altında bu missiyanı daşımağa hazırıq.

Dekabrın 24-ü Prezident İlham Əliyevin doğum günüdür. 59 yaşını qeyd edən dövlət başçımız ötən illərdə hər kəsə örnək ola biləcək olduqca zəngin, mənalı və qalib bir həyat yolu keçmişdir. Fürsətdən istifadə edərək çoxminlik Azərbaycan sahibkarları adından dövlət başçısını ad günü münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı, ölkəmizin inkişafı, xalqımızın rifahı, Qarabağımızın çiçəklənməsi naminə fədakar fəaliyyətində uğurlar arzulayırıq.

Sizinlə fəxr edirik, cənab Prezident!

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***









# Sosial Tədqiqatlar Mərkəzi "Dağlıq Qarabağda erməni əhalisinin sayı: işğala qədər və sonra" adlı hesabat yayıb

*Əvvəli 1-ci səh.*

Otuz il əvvəl Qarabağda azərbaycanlıları etnik təmizləməyə məruz qoymuş təcavüzkar Ermənistanın işğalçılıq siyasəti, bölgənin erməni əhalisinə qarşı da demoqrafik soyqırımı ilə nəticələnib. Ermənistanda demoqrafik çöküşün yaşanması BMT səviyyəsində bəyan edilib. BMT-nin hesablamalarına görə, Ermənistan əhalisi hər il 8 min nəfər azalma tendensiyasına malikdir.

Sovet dövründə Azərbaycan və Ermənistan əhalisi bənzər templərlə artsa da, 1993-cü ildən bəri vəziyyət dəyişib. Azərbaycan əhalisi hər il 1-2,5 faiz artmağa davam edərkən, Ermənistan əhalisi separatçı rejim dövründə, 1993-1995-ci illərdən başlayaraq hər il 3 faiz azalan dinamika üzrə davam edib, demoqrafik disbalans artıb, gənclərin sayı sürətlə azalmağa başlayıb. 1993-cü ildə Ermənistan və qondarma DQR əhalisi 3,6 milyon (Azərbaycanda 7.44 milyon), 2000-ci ildə 3.37 milyon (Azərbaycan-8 milyon), 2014-cü ildə 3.15 milyon (Azərbaycan-9.5 milyon) olub. BMT-nin hesablamalarına görə, vəziyyətin bu cür davam etməsi halında Ermənistan əhalisinin 2030-cu ildə 3 milyona, 2100-cü ildə 1 milyona düşəcəyi proqnozlaşdırılır. Demoqrafik problemlərlə bağlı müzakirələrdə bəzi tədqiqatçılar erməni əhalisinin sayının davamlı azalmasının başlıca səbəbini Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, xaricə miqrasiyanın səbəbini gec-tez hərbi əməliyyatların baş verəcəyindən qorxusu ilə əlaqələndirib.

Sovet siyahıyaalınmasında Qarabağ bölgəsində 1979-cu ildə ümumi əhali 162200 nəfər olub, onun 123100 nəfəri ermənilər (75,9 faiz), 37,300 nəfəri azərbaycanlılar (22,9 faiz) təşkil edib. Sonrakı etnik təmizləmə və mühacirət nəticəsində bölgə etnik baxımdan homogenləşib və rəsmən elan etdikləri 150000 əhalinin yüzdə 100 faizi ermənidir.



Son 30 ildə Qarabağda əhali sayının dinamikası ilə bağlı yazılan yeganə tədqiqatın erməni müəllifi deyir: "DQR-də demoqrafik problemlərin və əhalinin məskunlaşması ilə bağlı məsələlər öyrənilməyib. Yaşayış məntəqələrinin vəziyyəti qiymətləndirilməyib. Məskunlaşma proseslərinin tendensiyaları müəyyən edilməyib. Halbuki, erməni əhalisinin azalmasının qarşısını almaq üçün bu, çox vacibdir".

Digər erməni müəllifin demoqrafik kollapsla bağlı gəldiyi qənaət isə belədir: "Əhali artımının dayanmasının əsas səbəbləri bunlardır: müharibədə itkilər, intensiv mühacirət, aşağı doğum və çox yüksək ölüm nisbəti. Bu gün demoqrafik dinamikanın aşağı göstəriciləri nəticəsində əhali dinamikası son dərəcə pis istiqamətlənib. Əhalinin müharibədən əvvəlki səviyyəyə nə vaxt çatacağını proqnozlaşdırmaq qeyri-mümkündür".

Rusiyalı müəllif isə yazır ki, bölgə və Ermənistan rəhbərliyi Qarabağ əhalisinin 50 min nəfərdən çox azalmasının qarşısını ala bilməyib. Bu dəhşətli rəqəm sayılmalıdır və Qarabağın Azərbaycan daxilində Böyük Vətən müharibəsi illərində cəbhədə verdiyi böyük itkilərlə müqayisə edilə bilər. Rusiyalı müəllif davam edərək yazır ki, DQR-də 2005-ci ildə aparılmış siyahıyaalma, bölgədəki erməni əhalisinin tam monoetnik tərkibini göstərir. Əhalinin sayı onillərlə nəinki artıb, əksinə, 145 mindən 137 min nəfərə düşüb. Nəinki Azərbaycan əhalisi tamamilə qovulub, əlavə olaraq rus əhalinin sayında da kəskin azalma qeydə alınıb. Qarabağda yaşayan 2 min rus əhalidən cəmi 171 nəfər qalıb.

Beləliklə, Qarabağda 1 milyona yaxın soydaşımızın etnik təmizləməyə məruz qalması ilə Ermənistan işğalçı rəhbərliyi tərəfindən son 30 ildə Qarabağın erməni əhalisinə münasibətdə həyata keçirilən "demoqrafik mina" artıq işə düşüb və hazırda dövlətimizin apardığı azadlıq müharibəsi onun istənilən məqam partlamaması üçün bölgənin erməni icmasının qurtuluş yolu kimi çıxış edir.

Qeyd edilənlər baxımından əhali sayının göstərildiyi istənilən mənbələrə nəzər salmaq lazım gəlir. Məsələn, 1991-ci ildə qondarma "müstəqillik" səsverməsində 108615 nəfər seçici səs verib. 2017-ci ildə səs vermək hüququ olan şəxslərin sayı 103818 nəfər olub. 2020-ci il qondarma prezident seçici siyahısında isə 76728 nəfərin adı olub. Bu, onu göstərir ki, hətta qondarma qurumun rəsmiləri tərəfindən elan olunan rəqəmlər də əhali artımının tənəzzülünü təsəvvür etməyə imkan verir. Yəni 30 il ərzində səsvermə hüququ olanların sayı nəinki artıb, əksinə, 108 mindən 103 minə enib.

Qarabağda 30 illik işğalın demoqrafik nəticəsi Ermənistanın işğalçılıq siyasətində daha bir cinayətin-demoqrafik cinayətin tam sübutuna çevrilib. Bölgədə etnik müxtəlifliyin məhv edilməsi, əhali artımının çökməsi, münaqişənin həllində maraqlı olmaması ilə Ermənistanın işğalçı rəhbərliyi Qarabağda erməni xalqını "demoqrafik soyqırımına" uğradıb. Ermənistanın etnik təmizləmə siyasəti yalnız Azərbaycan əhalisinin deyil, həm də Qarabağın erməni icmasının bölgədən tədricən yox olmasının başlanğıcını qoyub. Vəziyyəti düzəltmək məqsədilə Dağlıq Qarabağ və ətraf rayonlara Ermənistandan (94 faiz), Rusiyadan (4.2 faiz) qanunsuz köçürmələr edilsə də, demoqrafik vəziyyət bərpa olunmayıb.

Həmçinin bu dövr ərzində qondarma rejim tərəfindən 30 minədək erməni qaçqının məskunlaşdırılmasına, Zəngilanda İraq ermənilərinin, Cəbrayılda İraq/Suriya ermənilərinin yerləşdirilməsinə 1 milyon dollara yaxın vəsait ayrılmasına baxmayaraq, öz doğma torpaqlarından qovulan soydaşlarımızın nə faliyyətini kompensasiya etmək, nə də erməni icmasının "nəslinin tədrici yoxa çıxmasının" qarşısını almaq mümkün olmayıb. Bu, birmənalıdır ki, Ermənistan əhalisi həm davam edən miqrasiya, həm də artım tempinin demək olar durduğu şəraitdə davamlı olaraq azalır. Bunlar, öz növbəsində, Azərbaycanın Qarabağın azadlığı uğrunda müharibəsinin həm də, bölgənin demoqrafik qurtuluşuna xidmət etməsini, 1 milyona yaxın qaçqın və məcburi köçkün əhalinin öz doğma torpaqlarına qaytarılmasının təxirə salınmaz məsələ olmasını göstərir.

Qeyd edək ki, Qarabağda məskunlaşdırılan ermənilərin yaşadığı demoqrafik böhrana baxmayaraq, separatçı rejim tərəfindən doğma torpaqlarından məcburi köçkün düşmüş azərbaycanlıların sayında son 30 il ərzində 40 faizə yaxın demoqrafik artım olub.

# Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider

*Əvvəli 1-ci səh.*

Ermənistanın sentyabrın 27-dən törətdiyi növbəti hərbi təxribat Azərbaycanın öz torpaqlarının azad edilməsi uğrunda əks hərbi-əməliyyatlara başlamasına səbəb oldu. Əməliyyatların ilk günü Füzuli və Cəbrayıl rayonlarının bir neçə kəndi işğaldan azad edildi. Tezliklə Ermənistanla dövlət sərhədinə qədər torpaqlarımızın işğaldan azad olunması ilə bütün dünya Azərbaycanın gücünü, işğalçı Ermənistanı ən qısa müddətdə məğlub etmək əzmini gördü. Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın, Xocavənd, Xocalı, Laçın, Tərtər rayonlarının kəndlərinin azad olunması, Xudafərində Azərbaycan bayrağının ucaldılması, İranla dövlət sərhədinə nəzarətin tam təmin edilməsi Azərbaycan Ordusunun möhtəşəm zəfərləri kimi tarixə düşdü. Cəbhənin elə bir sahəsi olmadı ki, əsgərlərimiz hücum əməliyyatında ləngisinlər. Elə bir istiqamət olmadı ki, düşmənin müdafiə mövqeləri yarılmasın. Bununla yanaşı, əsas olan odur ki, bu şanlı qələbəni Azərbaycan Ordusunun şəxsi heyəti, əsgərlərimiz, zabitlərimiz, gizirlərimiz qazandılar. Hansı hərbi vasitələrdən istifadə etmələrindən asılı olmayaraq bu qələbə sevincini xalqımıza hərbçilərimiz yaşatdılar.

Şuşanın azad olunması isə döyüşlərin kulminasiya nöqtəsi oldu. Bütün Azərbaycan xalqı ordumuzdan Qarabağın tacı olan Şuşanın azad edilməsini gözləyirdi. Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsini bəyan etməsi Vətən müharibəsində Azərbaycan Ordusunun müzəffər yürüşünün pik nöqtəsi oldu. Şuşanın azad edilməsi ilə Ermənistan İlham Əliyevin şərtlərinə uyğun olaraq kapitulyasiya, məğlubiyyət aktına imza atdı.

Dekabrın 10-da keçirilən Azərbaycan Ordusunun Zəfər paradında Prezident, Ali Baş Komandan bununla bağlı deyib: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi".

## İlham Əliyev ən ali dövlət təltiflərinə layiqdir

Azərbaycan Ordusu döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdi. Beləliklə, İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillər oldu.

Bu Qələbə həqiqətlərə də yeni işıq saldı. Belə ki, ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Bir çox ölkələr bu gün ordumuzun döyüş təcrübəsi ilə yaxından maraqlanmağa başlayıblar. Bununla da Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

Vətən müharibəsi onu da təsdiq etdi ki, işğalçı dövlət Azərbaycanla hərb meydanında mübarizə aparmağa qadir deyil. İşğal siyasətinin qurbanı olan Ermənistan 30 il əvvəl necə idisə, elə də qalıb və inkişaf baxımından bir addım belə addımlaya bilməyib. Ermənistanın məğlubedilməz ordusunun olması barədə deyilənlər tamamilə əfsanə imiş. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Ermənistanın məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi ilk gündən dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi adını əbədi olaraq tarixə yazdırdı. Azərbaycan xalqının qalibiyyət salnaməsinin müəllifi olan İlham Əliyev Vətən müharibəsinin qəhrəmanına çevrildi. Ona görə də həm hərb meydanında, həm də siyasi-diplomatik sferada qalib olan Prezident, Ali Baş Komandan İlham Əliyev ən ali dövlət təltiflərinə layiqdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# UNESCO öz missiyasını müstəqil və obyektiv şəkildə yerinə yetirməlidir

Azərbaycan tərəfi UNESCO ilə əməkdaşlığa, tərəf çıxdığı konvensiyalardan irəli gələn vəzifələrin icrasına və xüsusilə də mədəni irsin qorunması ilə bağlı öhdəliklərinə hər zaman sadiqlik nümayiş etdirib.

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin UNESCO-nun Azərbaycana missiyasının göndərilməsi ilə bağlı UNESCO-nun mətbuat açıqlamasına dair şərhində yer alıb.

XİN-in şərhində deyilir: "Ölkəmiz uzun illər ərzində həm Azərbaycanda, həm də qlobal miqyasda mədəni irsin bərpası və qorunması istiqamətində təşkilatın fəaliyyətinə ciddi töhfələr verib. Azərbaycanda mədəni irsin qorunması dövlət siyasətinin vacib istiqamətlərindən biridir. Ölkəmizin Ümumdünya İrs Komitəsinin ötən il keçirilən sonuncu sessiyasına uğurla ev sahibliyi etməsi mədəni irsin qorunmasına Azərbaycanın verdiyi əhəmiyyətin, eyni zamanda, üzv dövlətlərin Azərbaycana inam və etibarının yüksək ifadəsidir. Azərbaycan Respublikasının təşəbbüsü və dəstəyi ilə UNESCO tərəfindən ilk dəfə olaraq "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması ilə bağlı Hərbi Bələdçi" adlı nəşrin ərsəyə gəlməsi ölkəmizin UNESCO-nun dəyərlərinə sadiqliyinin bariz nümunəsidir.

Lakin təəssüflə qeyd etmək lazımdır ki, 30 il ərzində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və torpaqlarımızın işğalı zamanı mədəni irsimizin dağıdılması, mənimsənilməsi, mahiyyətinin dəyişdirilməsi, mədəni sərvətlərin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərin araşdırılması məqsədilə UNESCO-ya çağırışlarımıza laqeyd yanaşılıb və bu məsələ ilə bağlı UNESCO Katibliyi qətiyyətlilik nümayiş etdirməmişdir.

UNESCO tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarına missiyanın göndərilməsi təklifinin Azərbaycan tərəfindən nəzərdən keçirilməsi barədə təşkilata dəfələrlə məlumat verilib. Məsələ ilə bağlı vurğulanmalıdır ki, mədəni mülkiyyətimizə vurulmuş zərərin dəyərləndirilməsinə dair bölgəyə UNESCO missiyasının təşkili zamanı bir sıra amillər, o cümlədən ərazidə təhlükəsizliyin təmin olunması, hava və çətin relyef şəraiti də nəzərə alınmalıdır. Məlum olduğu kimi, Azərbaycan əraziləri Ermənistan tərəfindən həm işğal müddətində minalanıb (hərbi əməliyyatların dayandırılması ilə bağlı 10 noyabr tarixli bəyanatdan etibarən 6 mülki şəxs və 6 hərbçi minaya düşərək həyatını itirib, 7 mülki şəxs və 14 hərbçi isə xəsarət alıb), həm də Ermənistan ordusu işğal edilmiş ərazilərimizdən geri çəkilərkən tarix və mədəniyyət abidələrinin ətrafını da minalayaraq ərazini təhlükəli bölgəyə çevirib.

İşğaldan azad edilən Azərbaycan torpaqlarında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən mədəni irsin ilkin monitorinqinə başlanılıb və ilkin monitorinqin nəticələri UNESCO-ya rəsmi şəkildə təqdim olunub. Monitorinqin hesabatında, həmçinin vaxtilə Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərimizdə bütün dini və mədəni abidələrimizin dağıdılması, o cümlədən məscidlərimizin təhqir edilməsini əks etdirən fotolar da yer alıb. Ümid edirik ki, sözügedən monitorinqin hesabatında əks olunan hərbi cinayətlərə UNESCO səssiz qalmayacaq.

Hesab edirik ki, UNESCO öz missiyasını müstəqil və obyektiv şəkildə yerinə yetirməli və mədəni irsin qorunması məsələsinin siyasiləşdirilməsinə yol verməməlidir. UNESCO tərəfindən bu cür mətbuat açıqlamalarının verilməsi Azərbaycan ilə UNESCO arasında mövcud olan əməkdaşlığın ruhuna uyğun gəlmir.

Azərbaycan missiyanın təşkilinin təfərrüatlarını UNESCO ilə müzakirə etmək üçün konstruktiv dialoqa açıqdır və UNESCO ilə üzv dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmətə əsaslanan əməkdaşlığa hazır olduğunu bir daha bəyan edir".

# Həştərxan sahibkarları Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar

Azərbaycan-Rusiya İşgüzar Şurası və Həştərxan vilayəti Sənaye və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın və Həştərxan vilayətinin iş adamları arasında videokonfrans formatında görüş keçirilib.




İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan və Rusiya şirkətlərinin, iri ticarət şəbəkələrinin nümayəndələrinin iştirak etdiyi görüşdə kənd təsərrüfatı, balıq sənayesi, gəmiqayırma, tikinti, metallurgiya, logistika və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Azərbaycan-Rusiya İşgüzar Şurasının İdarə Heyətinin sədri Səməd Qurbanov ölkəmizin dövlətçilik tarixində mühüm hadisə - Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun şücaəti nəticəsində torpaqlarımızın işğaldan azad olunduğunu, Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyini vurğulayıb, münaqişənin tənzimlənməsi prosesində Rusiyanın rolunu diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanın işğaldan azad edilən ərazilərində yeni infrastruktur və biznes layihələrinin həyata keçirilməsi ölkəmiz qarşısında duran əsas vəzifələrdəndir. Bu layihələrdə tərəfdaş ölkələrin şirkətlərinin iştirakı iqtisadi əməkdaşlıq əlaqələrinin genişləndirilməsində əhəmiyyətli olacaq.

Azərbaycan şirkətlərinin Həştərxan vilayətində investisiya layihələrinin həyata keçirilməsində fəallığını vurğulayan S.Qurbanov Azərbaycanın "KDY Logistics" şirkəti tərəfindən iri logistik terminalının yaradılması layihəsini qeyd edib. Bildirilib ki, Həştərxanda birgə sosial layihələr də həyata keçirilir. Bunlar arasında Ulu Öndər Heydər Əliyevin abidəsinin açılışı, şəhər bağçasının abadlaşdırılması, məktəbin yenidən qurulması, uşaq bağçasının tikilməsi və bir çox digər layihələr də var. Bütün bunlar Azərbaycan-Rusiya Federasiyasının Həştərxan vilayəti əlaqələrinin genişlənməsi, eyni zamanda sahibkarlar arasında mövcud əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsi, ticarət və investisiya sahələrində birgə layihələrinin həyata keçirilməsi istiqamətində mühüm rol oynayacaq.

Görüşdə Həştərxan vilayəti sənaye və təbii sərvətlər naziri Denis Afanasyev Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayıb. Son illərdə Həştərxanda Azərbaycanın iştirakı, ölkə rəhbərliyinin və Heydər Əliyev Fondunun dəstəyi ilə bir neçə böyük layihələrin həyata keçirildiyini qeyd edib. Diqqətə çatdırılıb ki, Həştərxan vilayətinin sahibkarları Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlıdırlar və qarşılıqlı ticarət həcminin artırılması üçün böyük potensial var.

Videokonfrans çərçivəsində biznes dairələri arasında müxtəlif sahələrdə yeni əlaqələrin yaradılması istiqamətində fikir mübadiləsi aparılıb, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

# Biz birlikdə güclüyük!

*Əvvəli 1-ci səh.*

Baydenin peyvəndlənməsi ABŞ-da tibb işçilərinə vaksinin ilk dozaları tətbiq edildikdən bir həftə sonra və koronavirus əleyhinə ikinci vaksinin təcili istifadə olunmasına qida məhsullarının və dərman preparatlarının keyfiyyətinə sanitar nəzarəti idarəsi tərəfindən icazə veriləndən sonra aparılıb.

"Pfizer" vaksini 95 faizli effektivliyin alınmasından ötrü bir neçə həftə fasilə ilə iki dozanın vurulmasını tələb edir. Co və Cill Baydenlərin vaksinin ikinci dozasını nə vaxt alacaqları hələ məlum deyil.

Baydenin mətbuat katibi Cen Psaki bildirib ki, yeni seçilən vitse-prezident Kamala Harris və onun həyat yoldaşı Duq Emhoff gələn həftə peyvənd olunacaqlar.

# Dünyanın gözlədiyi peyvənd

"Pfizer/BioNTech" vaksini ilə yanaşı, Rusiyanın "Sputnik V" peyvəndinin də "COVID-19"a və onun mutasiyaya uğramış yeni növünə qarşı təsirli olacağı deyilir. Rusiyanın Birbaşa İnvestisiya Fondunun prezidenti Kirill Dmitriyev "Sputnik V"nin İngiltərədə ortaya çıxan yeni virus daxil olmaqla bütün koronavirus mutasiyalarına qarşı təsirli olacağını açıqlayıb: "Bu, Qamaleya Araşdırma Mərkəzi ilə qiymətləndirmələrimizə əsaslanır. "Sputnik V" nin əvvəlki modifikasiyalarla, S-proteinlə çox yaxşı və keyfiyyətli bir şəkildə mübarizə apardığını gördük. Bu səbəbdən ilkin təhlillər "Sputnik V"nin də bu mutasiyaya və digər mutasiyalara qarşı təsirli olacağını təsdiqləyir".




## Azərbaycanda vaksinləmə dövlət hesabına həyata keçiriləcək

Dünyada vaksinləmə prosesinin başlandığı vaxtda Azərbaycan da bu prosesə qoşulur. Ölkəmiz ötən aylar ərzində aparıcı vaksin istehsalçıları olan "Sputnik V", "AstraZeneca", "Sinofarm", "Sinovac", "Moderna", "Pfizer BioNTech" kimi firmalarla danışıqlar aparıb.

Azərbaycan hələ sentyabr ayında Qlobal Peyvəndlər Alyansı (GAVI), Epidemiyaya Hazırlıq İnnovasiyalar Alyansı (CEPI) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən yaradılan COVAX platformasına qoşulan ilk ölkələrdən olub. COVAX geniş sayda peyvənd namizədlərini müxtəlif texnologiyalar vasitəsilə qiymətləndirərək təhlükəsiz COVID-19 peyvənd təkliflər portfelini istifadə etmə imkanı yaradan əvəzolunmaz mexanizmə malik sistemdir. COVAX bütün ölkələr üçün effektiv peyvənd axtarışını sürətləndirən, dünyada COVID-19-a qarşı peyvəndlərə sürətli, ədalətli və bərabər əlçatanlığı təmin etmək üçün hazırlanmış bir mexanizmdir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI təşkilatı arasında imzalanmış sazişə əsasən, ÜST tərəfindən təsdiqlənmiş və tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda təşkilatın başqa üzv ölkələri ilə bərabər, Azərbaycan da təsdiqlənmiş peyvəndlə təmin olunacaq. Sazişə görə, ÜST-ün prekvalifikasiya mərhələsindən keçmiş COVID-19 əleyhinə peyvənd istehsal olunduqda Azərbaycan peyvəndi ilk əldə edən ölkələrdən biri olacaq.

Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının dekabrın 18-də videokonfrans formatında keçirilən iclasında çıxışı zamanı bu məsələyə toxunarkən bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olan ölkə kimi bu məsələni daim diqqət mərkəzində saxlayıb: "Biz həmişə bütün beynəlxalq forumlarda deyirdik ki, kifayət qədər maliyyə resurslarına malik olmayan ölkələrin də vaksinlərdən istifadə etmək imkanı inkişaf etmiş ölkələr kimi olsun, bu məsələdə ayrı-seçkilik olmasın. Biz də vaksinləmə strategiyasını hazırlamışıq, bu strategiya çoxplatformalılığı nəzərdə tutur. Hansı texnologiyalardan istifadə ediləcəyindən asılı olmayaraq, bizim üçün əsas meyar həmin vaksinlərin elmi cəhətdən əsaslandırılmış təhlükəsizliyi olacaq. Nəzərdə tutulur ki, vaksinləmə proqramı gələn ilin əvvəlində başlanacaq, vaksinləmə könüllü olacaq və dövlət hesabına həyata keçiriləcək".

## İlk peyvəndin kəşfi

Bütün dünya koronavirusdan qurtulmaq üçün peyvəndlənməni səbirsizliklə gözləyir. Digər tərəfdən isə insanlar arasında peyvənd haqqında müxtəlif şayiələr dolaşır, inamsızlıq, qərarsızlıq sezilir. Bu yerdə peyvəndin insanlıq üçün hansı məna kəsb etdiyini göstərən tarixə, ilk peyvəndin kəşfinə qısa bir nəzər salaq.

Suçiçəyinin 3000 il əvvəl Misir və ya Hindistanda yarandığı fərz edilir. Bir zamanlar çox dəhşətli sayılan bu xəstəlik ümumilikdə 500 milyon insanın ölümünə səbəb olub. XVIII əsrin əvvəllərində təkcə Avropada hər il 400 min insan bu xəstəlik səbəbindən həyatını itirirdi. Suçiçəyinə yoluxan hər 3 böyükdən biri, 10 körpədən 8-i ölürdü.

1721-ci ildə ABŞ-da başlayan epidemiya Bostonda əhalinin yüzdə 8 faizinin həyatına son qoymuşdu. 1950-ci illərdə hər il 50 milyon insan bu xəstəliyə yoluxurdu. Sağ qalanlarda əlavə təsirlər yaranır, görmə qabiliyyəti itir və ya bədənlərində xəstəlikdən əmələ gələn yaraların izləri qalırdı. Bütün bədən ağrıyır, yüksək hərarət, boğaz və baş ağrısı, nəfəs almada çətinlik yaranırdı. Vücudun hər yerində, hətta ağciyərlərdə qorxunc səpkilər çıxırdı.

Yoluxma şəkli də koronavirusa bənzəyirdi; Xəstəlik havadamcı və ya təmas yolu ilə, virusa yoluxmuş səthlərə və əşyalara toxunaraq keçirdi. İnkubasiya müddəti 10-14 gün idi.

Və bəşər tarixi qədər qədim olan suçiçəyi xəstəliyinə qarşı heç bir müalicə üsulu tapılmırdı. Lakin 1796-cı ildə ingilis həkim Edvard Cenner tərəfindən ilk peyvənd tapıldı.

Həkim epidemiyanın yayıldığı yerləri nəzərdən keçirdikdə anladı ki, bəzi adamlara bu xəstəlik ümumiyyətlə keçmir. Cenner o adamları diqqətlə sorğu-sual etdikdən sonra öyrənir ki, onlar uşaqlıqda inək çiçəyi ilə xəstələniblər, lakin sağalıblar.

Cenner başa düşür ki, inək çiçəyi xəstəliyi keçirənlər qorxmaya bilərlər - onların qanında xəstəliyin mikroblarını öldürən nəsə var. Bununla da o, təcrübələr keçirməyə başlayır. Vaxtilə inək xəstəliyi keçirmiş Sara Nelmesin qanından nümunələr götürür. 8 yaşlı Ceyms Filipsin 4 yerdən əlini çərtərək həmin qanı ora sürtür. 6 gündən sonra Filips xəstələnir, lakin 3 gün keçəndən sonra sağalır. Cennerin fikri təsdiqlənir. O, bundan cəsarətlənərək təcrübələrini daha da genişləndirir. Suçiçəyi olmuş adamdan nümunə götürüb Filipsə yeridir. Bu dəfə də təcrübə uğurlu alınır - uşaqda immunitet yarandığı üçün xəstələnmir.

## Bəşər tarixinin ən böyük qələbəsi

Beləliklə, suçiçəyinə qarşı vaksin kəşf olunur. "Vaksin" latın sözü olub, "vakka" - "inəkdən götürülüb" mənasını verir. Təbii ki, Cennerin bu kəşfi ilk zamanlar hər kəs tərəfindən qəbul edilmir, ələ salınır, karikaturalara mövzu olur. Lakin məhz bu kəşf iki yüz il sonra bütün dünyada tətbiq olunan ilk peyvəndin əsas qaynağına çevrilir.

1800-cü ilədək dünyada təxminən 100 min insan inəklərin sinələrindəki çiçək qabarcıqlarından götürülmüş maye ilə peyvəndlənir. 19-20-ci əsrlərdə isə elm adamları suçiçəyi peyvəndini daha da təkmilləşdirir və yeni vaksinlər hazırlayır.

Ümumdünya Səhiyyə Təşkilatı isə 1967-ci ildə qlobal peyvəndləmə kampaniyasına start verir. Və 1979-cu ildə xəstəlik tamamilə yox edilir. Bu, təkcə tibbin deyil, bəşər tarixinin ən böyük qələbələrindən biri sayılırdı.

İndi dünyanın bütün ölkələrində uşaqlar peyvənd edilir: vaxtilə çiçək xəstəliynə yoluxmuş buzovun qanından götürülmüş milyonlarla leykositlər insanın qanına vurulur. Bu leykositlər çiçək xəstəliyi ilə mübarizədə sınaqdan keçirilir və onun öhdəsindən asanlıqla gəlir. Məhz peyvəndlər sayəsində hazırda insanlar suçiçəyi və bir çox başqa infeksiyalara nadir hallarda yoluxur, yoluxduqda belə xəstəliyi yüngül keçirirlər.

Müasir tibbin bəzi dəyişməz və dəyişdirilməz qaydaları var. Qaydalardan biri budur: Hansısa sağlıq probleminin qarşısını almaq və ya həll etmək istəyirsinizsə, ilk olaraq peyvənd və dərmanlardan faydalanmalısınız. COVID-19 pandemiyasında da bu qayda keçərlidir.

Təbii ki, heç bir peyvənd və dərman yüzdəyüz təhlükəsiz, problemsiz deyil. İstənilən dərmanın əlavə təsirləri, ən azından alllergik reaksiya verə bilmə ehtimalı hər zaman var.

Ancaq peyvəndin təhlükəsizliyi haqda belə bir deyim səslənir: "Bir avtomobilə minib harasa gedən zaman heç kim qəza ehtimalı barədə düşünmür və buna görə də səyahətindən qalmır. Bilin ki, hər hansı bir peyvəndin əlavə təsirlərə səbəb olma ehtimalı avtomobil qəzasında olduğundan daha azdır".

Odur ki, vaksinasiya proqramlarını dəstəkləmək və iştirak etmək tək vətəndaşlıq borcu yox, həm də insanlığın gələcəyi üçün bir töhfədir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Bakı Dövlət Regional Peşə Təhsili Mərkəzi üçün inzibati bina və emalatxana sahəsinin icarəsi xidmətinin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı : 50.00 (əlli) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**

**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI:AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (01.12.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti *(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur)*;
6. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;
7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.12.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);
8. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;
9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;
10. Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15.01.2021-ci il saat 15:00** tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.01.2021-ci il saat 15:00** tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.01.2021-ci il saat 15:00** tarixində açılacaqdır.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## "AzerGold" QSC və Heydər Əliyev Mərkəzi "Qarabağ inciləri" mövzusunda sikkələrin dizayn müsabiqəsinə start verdi

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) və Heydər Əliyev Mərkəzi "Qarabağ inciləri" mövzusunda Azərbaycan qızılından istehsal ediləcək sikkələrin dizayn müsabiqəsini elan edir.




Dizayn müsabiqəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qələbəsinə və Azərbaycanın ayrılmaz parçası olan, işğaldan azad edilən Qarabağa həsr edilib. Müsabiqə Qarabağın qədim tarixini, mədəniyyətini, incəsənətini, qeyri-maddi mədəni irs nümunələrini ehtiva etməklə yeni və fərqli sikkə dizayn nümunələrinin seçilməsini hədəfləyir.

Dizayn müsabiqəsi "Qarabağın qədim mədəni irsi", "Qarabağın qədim tarixi", "Qarabağın simvolları", "Şanlı Ordumuzun zəfər yürüşü", "Biz Qarabağa qayıdırıq", "Əsirlikdən azad edilən abidələr" kimi mövzu istiqamətlərini əhatə edir. İştirakçılar yuxarıda sadalanan mövzular üzrə hazırladıqları layihələri www.azergold.gift platformasında yaradılan xüsusi səhifə vasitəsilə yükləməklə müsabiqəyə qoşula bilərlər.

Təqdim ediləcək dizayn nümunələri müsabiqənin Əsasnaməsində qeyd edilən şərtlərə cavab verməlidir. Layihələr ölkənin tanınmış mədəniyyət xadimləri, rəssamlar və dizaynerlərdən təşkil edilmiş münsiflər heyəti tərəfindən estetik görünüş, konseptual mövzu, unikallıq və tətbiqə yararlılıq kimi meyarlar nəzərə alınmaqla anonim qaydada qiymətləndiriləcək. İlk 3 yerin qalibi diplom və pul mükafatı (1-ci yer 3000 AZN, 2-ci yer 2000 AZN, 3-cü yer 1000 AZN) ilə təltif ediləcəklər. Əlavə olaraq müsabiqəyə daxil olan bütün layihələr www.azergold.gift saytında onlayn səsverməyə çıxarılacaq. Ən çox səs toplayan layihə "İzləyici rəğbəti" nominasiyası üzrə qalib elan ediləcək və qalibə 1000 AZN məbləğində pul mükafatı təqdim olunacaq.

Müsabiqə elan olunduğu vaxtdan - 22.12.2020-ci il tarixdən etibarən başlayır, müvafiq dizayn layihələrinin qəbulu üçün son tarix 01.02.2021-ci ildir.

Qeyd edək ki, Qarabağın əsrlərboyu formalaşmış milli-mənəvi dəyərlər sisteminin elementlərinin sikkələrdə öz əksini tapması bu dəyərlərin təbliğinə xidmət edir. Xatırladaq ki,"AzerGold" QSC tərəfindən 2018-ci ildə istehsal olunan 3 növ qızıl və gümüş sikkələrin üzərində Heydər Əliyev Mərkəzi, Qobustan qayaüstü təsvirləri və Qarabağ xalçasının "Çələbi" naxışının əks olunması Azərbaycanın müasirliyinin, tarix və incəsənətinin təbliğinə yönəlib.

Müsabiqə ilə bağlı daha ətraflı məlumatı https://azergold.gift/az/contest linkinə keçid edərək əldə edə bilərsiniz.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi Quba rayonunda yeni açılacaq DOST mərkəzində İT infrastrukturun (sistemlərin) qurulmasına lazım olan avadanlıqlar, proqram təminatları və onların quraşdırılması (sazlanması) üzrə işlərin satın alınması ilə bağlı keçirilən

### *təkliflər sorğusuna dəvət edir*

Maraqlanan təşkilatlar (012) 497 71 34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**İştirak haqqı: 100,0 ( bir yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İstirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 dekabr 2020-ci il saat 15:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 2020-ci il 28 dekabr saat 17:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## "Prezident Kuboku" uğrunda çövkən milli atüstü oyununun finalçıları bəlli olub

22 dekabr 2020-ci il tarixdə Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən təşkil olunan "Prezident Kuboku" turnirinin yarımfinal mərhələsinin oyunları keçirilib.

| 24.12.2020 | | | |
|---|---|---|---|
| FİNAL OYUNU | | | |
| Polad | ?–? | Sərhədçi | 13:00 |
| ÜÇÜNCÜLÜK OYUNU | | | |
| Sərhədçi 2-Dilbaz | ?–? | Buta Qolden | 12:00 |

**Prezident Kuboku uğrunda Çövkən Milli Atüstü oyunu 2020**
**Yarımfinal mərhələsi oyunlarının nəticələri**
**22.12.2020**

| | | |
|---|---|---|
| Buta Qolden | 0–1 | Sərhədçi |
| Sərhədçi 2-Dilbaz | 0–3 | Polad |

Qrup oyunlarının nəticələrinə əsasən, yarımfinal mərhələsində "Sərhədçi" komandası "Buta Qolden" komandası ilə, "Polad" komandası isə "Sərhədçi 2-Dilbaz" komandası ilə qarşılaşıb.

Gərgin mübarizə şəraitində keçən birinci oyunda "Sərhədçi" öz rəqibinə 1-0 qalib gələrək finala vəsiqə qazanan ilk komanda olub. Oyundakı tək qolu komandanın kapitanı Elçin Camallı vurub.

Saat 13:00-dan etibarən başlayan ikinci oyunda üstünlüyü ələ alan "Polad" komandası ilk hissəni rəqibi qarşısında 3-0 hesabı ilə öndə bitirib. İkinci hissənin əvvəlində "Sərhədçi 2-Dilbaz" komandası meydana çıxmaqdan imtina etdiyinə görə ona 0-3 hesablı texniki məğlubiyyət elan olunub.

Bununla da 24 dekabr 2020-ci il tarixdə keçiriləcək final görüşünün iştirakçıları bəlli olub. Saat 13:00-dan etibarən başlayacaq görüşdə "Sərhədçi" və "Polad" komandaları qarşılaşacaqlar.

Üçüncülük oyunu isə 24 dekabr 2020-ci il tarixdə saat 12:00-dan etibarən "Buta Qolden" və "Sərhədçi 2-Dilbaz" komandaları arasında baş tutacaq.

Xatırladaq ki, oyunlar tamaşaçıların iştirakı olmadan açıq havada və karantin qaydalarına uyğun şəkildə keçirilir.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

### "Azərbaycan İnvestisiya Şirkəti" ASC kartriclərin, çap işlərinin, ərzaq məhsullarının və hədiyyəlik şirniyyatların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilər.

